Elm $g 2025.- 4 aprel(№12).- S.8.

# Milli Kitabxana "Azərbaycan Milli Elmlər Akademiyası - 80" adlı virtual və ənənəvi sərgilər hazırlayıb

**Milli Kitabxanada ”Azərbaycan Milli Elmlər Akademiyası - 80” adlı virtual sərgi və geniş ənənəvi kitab sərgisi təqdim olunub.**




Kitabxanadan AZƏRTAC-a bildirilib ki, sərgilərdə rəsmi sənədlər, Azərbaycan Milli Elmlər Akademiyasının yaranması, tarixi, elmin inkişaf mərhələləri, elm ocağının təsisçiləri, alimləri, əməkdaşların elmi tədqiqatları, ayrı-ayrı institutlarının nəşrləri, elmi əsərləri, Azərbaycan və xarici dillərdə ədəbiyyatlar, Milli Kitabxananın görkəmli elm xadimləri haqqında nəşr etdiyi biblioqrafiyalar, dövri mətbuatda çap olunan yubiley məqalələri nümayiş olunur.

Ənənəvi sərgi bir həftə davam edəcək.